*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 530-538*
https://doi.org/10.62837/2024.6.530

**ƏKRƏM HƏSƏNOV**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*ilahiyyat üzrə fəlsəfə doktoru, dosent*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
*e-mail: garibekrem@hotmail.com*

# AZƏRBAYCAN LİRİK ŞEİRİNDƏ TƏBİƏT VƏ İNSAN VƏHDƏTİ MÖVZUSU ƏNƏNƏDƏN MÜASİRLİYƏ

**Xülasə**

Azərbaycan poeziyasında təbiətin tərənnümü əsrlər boyu poeziyanın əbədi mövzularından biri olmuşdur. Klassik poetikada buna peyzaj da deyilir.

Azərbaycan ədəbiyyatında hələ ilkin orta əsrlərdə təbiət təsvirlərinə böyük önəm verilmiş, əsərin mövzu və məzmunundan, sənətkarın mizac və yaradıcılıq üslubundan asılı olaraq müxtəlif məqsədlərlə rəngarəng peyzajlar yaradılmışdır. Azərbaycan poeziyasının peyzaj qalereyası bu baxımdan olduqca zəngindir. XI əsrdə Qətran Təbrizinin qəsidələrində, Nizami Gəncəvinin "İskəndərnamə" poemasında (Bərdənin təsvirində), Məhəmməd Füzulinin qəzəllərində tez-tez müraciət olunan təbiət atributlarında, Şah İsmayıl Xətainin bahariyyəsində, Vaqifin, Vidadinin qoşmalarında, XX əsr Azərbaycan romantik şairlərinin – Məhəmməd Hadi, Heseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq və Cəfər Cabbarlının şeirlərində canlandırılan təbiət obrazı poeziyada sürəkli bir ənənənin mövcudluğunu təsdiq edir. Bu ənənə sovet dövründə Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Məmməd Rahim, Qabil, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Əhməd Cəmil, Hüseyn Arif, Qasım Qasımzadə, Məmməd Araz, İslam Səfərli, Əliağa Kürçaylı, Hüseyn Kürdoğlu və başqa şairlərin şeirlərində davam etdirilmişdir.

***Açar sözlər:*** *şair, təbiət, peyzaj, poeziya, insan, psixoloji yaxınlıq*

**Giriş.** Fil.e.d. Nailə Muradəliyeva "Ədəbiyyatda romantik peyzaj" monoqrafiyasında bədii əsərdə təbiət təsvirlərinin funksional-psixoloji missiyasını dəyərləndirərkən yazır: *"Peyzaj detalları bədii əsərlərdə əsas estetik rolu oynayır. Belə ki, peyzaj bədii əsərlərdə sadəcə olaraq təbiət lövhələrinin təsvirindən ibarət deyildir. Bu, hər şeydən əvvəl, əsərdə konkret funksiya daşıyan bir anlayışdır"* [14, s.110].

Əslində, təbiətin tərənnümü mövzusunu Vətən və vətənpərvərlik mövzusunun tərkib hissəsi də saymaq olar. Çünki Azərbaycan təbiətindən, onun gözəlliklərindən söz açmaq elə Azərbaycandan söz açmaq deməkdir. Məmməd Arazın bu misralarında deyildiyi kimi:

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 530-538*

*Azərbaycan – qayalarda bitən bir çiçək,*
*Azərbaycan – çiçəklərin içində qaya.*
*Mənim könlüm bu torpağı vəsf eyləyərək,*
*Azərbaycan dünyasından baxar dünyaya...* [1, s.40]

**Əsas hissə.** Klassik ədəbiyyatda təbiət əsasən sırf tərənnüm obyektinə çevrilirdi. Divan ədəbiyyatında ən çox sevilən bir fəsil kimi bahar dönə-dönə vəsf edilir, bu fəsilə məxsus xüsusiyyətlər – ağacların çiçəklənməsi, lalə, bənövşə və qızılgülün açması, ümumən təbiətin canlanması şairləri ilhama gətirir, söz sənətkarları təbiət hadisələrinin fonunda öz ruhi-psixoloji hallarını da qələmə alırdılar. "Bahariyyə" qəsidə forması da məhz belə yaranmışdır və Azərbaycan ədəbiyyatında ilk "Bahariyyə"nin müəllifi Şah İsmayıl Xətaidir.

*Qış getdi, yenə bahar gəldi,*
*Gül bitdi vü laləzar gəldi.*
*Quşlar qamusu fəğanə düşdü,*
*Eşq odu yenə bu canə düşdü.*
*Sərvin yenə dutdu damənin su,*
*Sü üstə oxudu faxtə gu-gu.*
*Ğönçə dəhəni çəməndə xəndan.*
*Gülmaxdan ənar açıldı dəndan...* [11, s.229]

Baharın gəlişiylə təbiətin canlanması, hər bir gülün, çiçəyin öz gözəlliyi, çölün, çəmənin, dağın, suyun, torpağın baharda ayrı cür cazibəsi "Bahariyyə"də poetik ustalıqla əks olunmuşdur. Klassik poeziyada bahara məxsus bütün əlamətlər sevgi, məhəbbət mövzusunda olan qəzəllərdə, xüsusilə sevgilinin zahiri gözəlliyinin təsvirində öz əksini tapmışdır. Füzulinin əksər qəzəllərində işlənən təbiət atributları buna misal ola bilər.

*Bağə girdim, səri-kuyin anıb əfqan etdim,*
*Gül görüb, yadın ilə çaki-giriban etdim.*
*Baxuban nərgisə, əyyar gözün qıldım yad,*
*Nərgisi naləvü əfğanıma heyran etdim.*
*... Güli-tər üzrə düşən şəbnəmə düşdü nəzərim,*
*Gözümü şövqi-cəmalında dürəfşan etdim.*
*... Görücək sünbülü, andım şikəni-kakilini,*
*Sünbülü giryəvü ahilə pərişan etdim...* [8, s.30]

Füzulinin bu qəzəlində şairin necə bir təbiət aşiqi olduğu, bağın hər bir çiçəyinin, gülünün xassəsinə bələd olduğunu və onları sevgilinin üzündəki hansı ştrixi, detalı simvolizə etdiyini şərhə ehtiyac yoxdur. Qəzəldə iki məqsəd güdülür: şair həm bağda olan güllərin, çiçəklərin əlamətlərini nəzərə çarpdırmaq, həm də hər

biri sevgilinin hansısa bir nişanəsini andıran çiçəkləri görərkən onu xatırlaması üzündən düşdüyü pərişan əhvalının bitkilərə də yansıdığını, dolayısı ilə təbiətin onunla həmhal olduğunu göstərmək istəmişdir. Bağ, əslində məşuqənin məhəlləsidir, aşiq bu bağa girən kimi inildəyir, gülü görəndə yaxasını para-para eləyib sinəsini göstərir. Bağçadakı gül yarpaqları əslində, gül yarpağı deyillər, bunlar aşiqin ciyər qanına buladığı yarpaqlardır. Aşiqin pərişan əhvalı ilə bağçadakı təzə gülün üstündəki şeh necə də oxşardır, şeh də aşiq kimi gözlərindən dürlər tökür, inci saçır, ağlayır.

Ümumiyyətlə, klassik poeziyada təbiət məhz insan (aşiq) əhval-ruhiyyəsinin ifadəsi kimi diqqəti cəlb edir, təbiətlə insanın daxili, mənəvi dünyası arasında bir bənzərlik, bir vəhdət axtarılır. İnsan təbiətin durumu ilə özü arasında həmişə bir bənzərlik tapır. Bu tendensiya yüzilliklər boyunca davam edərək ənənə halını almış və XIX əsr, həmçinin XX yüzilliyin əvvəllərində yazıb-yaratmış Azərbaycan şairlərinin yaradıcılığında da yeni çalarlarla zənginləşdirilərək, yeni notlar kəsb edərək davam etdirilmişdir.

Məsələn, Aşıq Ələsgərin "Dağlar" rədifli iki qoşması vardır. Birinci qoşmada dağların gözəlliyi vəsf olunur:

*Bahar fəsli, yaz ayları gələndə,*
*Süsənli, sünbüllü, lalalı dağlar.*
*Yoxsulu, ərbabı, şahı, gədanı*
*Tutmaz bir-birindən alalı dağlar.*

*Yazın bir ayıdı çox yaxşı çağın;*
*Kəsilməz çeşməndən gözəl yığnağın.*
*Axtarma motalın, yağın, qaymağın,*
*Zənbur çiçəyindən bal alı, dağlar!* [2, s.47]

Bu qoşmada gözümüzün qarşısında əzəmətli bir Dağ obrazı canlanır. Şairin nikbin əhval-ruhiyyəsi ilə "qüdrətdən səngərli, qalalı dağlar" bir-birinə tən gəlir. Fil.ü.f.d. Gülnar Osmanova "Aşıq Ələsgər şeirlərində peyzaj və lirik qəhrəman" adlı tədqiqat işində aşıq-şairin yaradıcılığındakı bu xüsusiyyətə ayrıca diqqət cəlb etmişdir: *"Aşıq Ələsgərin lirik qəhrəmanı sevinərkən təbiət də sevinir. Onun qəhrəmanı qəmgin, məyus olanda təbiət də sanki qəmə batır. ... Təbiətin hər bir komponentini gözdən qaçırmayan müəllif müxtəlif mənzərələri təsvir etməklə sanki lirik qəhrəmanın hiss və həyəcanlarını, əhvali-ruhiyyəsini ifadə etməyə çalışır"* [9, s.225]. Maraqlıdır ki, aşığın eyni rədifli başqa bir qoşmasında isə yuxarıdakı nikbin təsvirin və buna uyğun olaraq şən və şux əhval-ruhiyyənin əksini görürük:

*Hanı mən gördüyüm qurğu-büsatlar?!*
*Dərdiməndlər görsə, tez bağrı çatlar;*
*Mələşmir sürülər, kişnəmir atlar,*
*Niyə pərişandı halların, dağlar?!*

*Hanı bu yaylaqda yaylanan ellər?!*
*Görəndə gözümdən car oldu sellər.*
*Seyr etmir köysündə türfə gözəllər,*
*Sancılmır buxağa güllərin dağlar* [2, s.48].

Əslində peyzaj də bədii surətdir, təbiətin bir parçasının, məsələn, dağın obrazı da poetik xarakterdir. Yazıçı onun vasitəsilə həyata, gerçəkliyə, bəzən yaratdığı qəhrəmanın özünə münasibətini, emosiyalarını ifadə edir. Mövzu ilə bağlı tədqiqatlarda da qeyd edilir ki, *"görkəmli sənətkarların yaratdıqları təbiət mənzərələrində, hər şeydən əvvəl, onların təbiətə, gözəlliyə estetik münasibəti öz əksini tapmış, qəhrəmanların düşdüyü psixoloji vəziyyətə uyğun peyzajlar yaradılmışdır"* [6, s.7-8].

Klassik poeziyadan gələn bu ənənə – təbiət gözəlliklərinin təsviri, insan əhval-ruhiyyəsi ilə təbiət arasında bir harmoniya və vəhdətin olması XX əsr Azərbaycan şeirində də öz davam və inkişafını tapmışdır. XX əsr Azərbaycan romantiklərinin şeirlərində hürriyyət, azadlıq, istiqlal arzuları, yaxud cəmiyyətdə baş verən haqsızlıqlar, maddi və mənəvi zülmlə bağlı qəmgin notlar, etirazlar təbiət obrazlarına müraciətdə öz əksini tapmışdır.

Sovet dövrü poeziyasında təbiət obrazı, insan-təbiət münasibətləri əsasən bir çox aspektdə diqqəti cəlb edir. Sırf təbiət təsvirləri, peyzaj xarakterli şeirlərdə Şah İsmayıl Xətainin "Bahariyyə"sinin qoyduğu ənənə davam etdirilir. Məsələn, Əhməd Cavadın 1925-ci ildə qələmə aldığı "Göy göl" şeiri bu qəbildəndir. Məlumdur ki, o zaman bu şeir bir çox mübahisələrə səbəb olmuşdu, şairi haqsız yerə keçmişi, Müsavat dövrünü arzulamaqda ittiham etmişdilər. Hətta onu tərcümə etdirib Moskvaya da göndərmişdilər, amma şeir orada yoxlanılsa da, elə bir siyasi səhv tapılmamışdı. "Göy göl" şeiri sırf tərənnüm şeiri idi, Azərbaycanın mavi gözlü təbiət gözəli olsn Göy gölün gözəlliklərini əks etdirən şeirdə oxuyuruq:

*Dumanlı dağların yaşıl qoynunda*
*Bulmuş gözəllikdə kamalı Göy göl!*
*Yaşıl gərdənbəndi gözəl boynunda*
*Əks etmiş dağların camalı Göy göl!*

*Kəsin eyşü-nuşi, gələnlər, susun,*
*Dumandan yorğanı, döşəyi yosun,*
*Bir yorğun pəri var, bir az uyusun,*
*Uyusun dağların maralı Göy göl!* [3, s.100]

Ümumiyyətlə, Azərbaycan poeziyasında sırf peyzaj təəssüratı yaradan, ayrı-ayrı dağlara, meşələrə, çaylara, göllərə, dənizə, şəhərlərə, kəndlərə, yurd yerlərinə həsr olunmuş şeirlərin sayı-hesabı yoxdur, lakin etiraf etmək lazımdır ki, bu

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2024
Səh. 530-538
məzmunda olan şeirlərin heç də hamısı poeziyamızın yaddaşına həkk olunmamış, ölümsüzlük qazanmamışdır. Əsas ustalıq, şairlik istedadı ondadır ki, şeirdə ümumiləşdirmə meyarı olsun, yəni bədii sənət əsərində təkcə konkret bir məkanın lövhələri deyil, onun fonunda həm də bütöv Vətənin təbiət gözəllikləri əks olunsun. Məsələn, Xalq şairi Qabilin İsmayıllı lövhələrinə həsr etdiyi "Qoy danışsın təbiət" şeirində olduğu kimi:

*Başımın üstündə çətirli meşə,*
*Yuyunmuş, daranmış, ətirli meşə.*
*O yazda yaşıldı, payızda əlvan.*
*Bir ağac kəhrəba, bir ağac mərcan.*
*Bir yarpaq günəşin şöləsində zər,*
*Bir yarpaq buludun gözünü silər.*
*Dinim, ya dinməyim, dinləyim əlbət,*
*Qoy danışsın təbiət!* [7, s.113]

XX əsr Azərbaycan poeziyasında təbiət və onun gözəllikləri, insan və təbiət vəhdəti Səməd Vurğun, Süleyman Rüstəm və Rəsul Rzanın şeirlərində daha çox əks olunurdu, təbii ki, bu sırada sovet dövrü Azərbaycan poeziyasının nəhəng simalarından olan Səməd Vurğun öncül idi, onun "Muğan" poeması, ayrı-ayrı şeirləri poeziyada Vətən torpağının, Vətən təbiətinin fəlsəfi-poetik inikası idi. Şair çox vaxt əsl arzu və niyyətini sovet senzurasından gizlətmək üçün bədii priyom işlədərək ürəyindən keçənləri obrazlarının, hətta bəzən başqa qitənin vətəndaşının dilindən verirdi: Məsələn, o, zəncinin dili ilə deyirdi:

*Deyirəm ki, qarış-qarış*
*Gəzim vətən torpağını;*
*Payız düşüb saraltmamış*
*Ağacların yarpağını,*
*Seyr eləyim dağı, daşı;*
*Qayaların çatıq qaşı*
*Başım üstə kölgə salsın.*
*Könlüm quşu ilham alsın,*
*Qanad gərsin bir çəməndə...* [10, s.264]

Səməd Vurğunun təbiətlə bağlı obrazlı düşüncələrini, Azərbaycan torpağına sonsuz və coşğun sevgisini "poetik dərs kimi" mənimsəmiş o zamanın gənc şairləri – Hüseyn Arif, Qabil, Əliağa Kürçaylı, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, İslam Səfərli öz yaradıcılıqlarında bu ənənəni davam etdirirlər. Bu şairlərdən Hüseyn Arifi xüsusilə fərqləndirmək lazımdır. Etiraf edilməlidir ki, onun poeziyasını Azərbaycan təbiətinin poetik xəritəsi adlandırmaq olar. Təbiətin elə bir atributu, elə bir məkanı, elə bir predmeti yoxdur ki, Hüseyn Arif ona şeir həsr etməsin.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 530-538*
"Buludlar", "Meşələr", "Damcılar", "Bir ovuc torpaq", "Bulaq", "Bənövşələr", "Ağaclar", "Gəncə çinarları", "Palıdlar", "Qoz ağacı", "Kök və budaq", "Dağlar", "Dərələr" –bu adlar Hüseyn Arif poeziyasının hələ çox cüzi panoramasını əks etdirir. Ən əsası odur ki, şair təbiəti yaxşı duyur, təbiətə sevgisi qarşısıalınmazdır və nədən yazırsa-yazsın, təbiətin gözəlliklərininin sözlə rəsmini çəkir. Ancaq o, təbiəti təkcə vəsf eləmir, həm də ona fəlsəfi məna verir, zahiri, görünən cizgilərə mahiyyətdən, məna qatından nəzər salır. Bu mənada Hüseyn Arifin "Təbiət düşünür" şeirini XX əsr Azərbaycan poeziyasında təbiət-insan vəhdətinin ən bariz, ən parlaq bir nümunəsi hesab etmək olar:

*Cəl, çıxaq seyrinə uca dağların,*
*Çəmən olan yerdə xalça nə lazım.*
*Gözündən su içək buz bulaqların,*
*Lilpar olan yerdə dolça nə lazım.*
*...Zülmət gecələrdə parlayan şimşək*
*Yol üstdə göz qırpan mayak deyilmi?*
*Gəlin, təbiəti biz də düşünək,*
*O özü hər şeyi düşünən kimi* [5, s.66].

Görkəmli tənqidçi-filosof Asif Əfəndiyev yazırdı: *"Məncə bu şeirdə (söhbət Hüseyn Arifin "Təbiət düşünür" şeirindən gedir – Ə.H.) fərdi bir şəxsiyyətin əhval-ruhiyyəsi yox, müəyyən və aydın bir estetik ideal ifadə olunmuşdur. Öz şeirilə şair demişdir ki, təbiətlə təmasda olan, onun gözəlliyini duyan, dərk edən, qəlbində yaşadan insan ömrü əsl böyük və şairanə ömürdür. Fikrin, ehtirasın qanadları təbiət səmalarına ucaldıqda ömür mənalanır, kamilləşir, sanki illər, aylar çəmənlərə, çöllərə, dağlara qarışır və ali bir vəhdət – insan müdrikliyi ilə təbiət müdrikliyi arasında vəhdət yaranır. Təbiətə yaxın qəlb özünə əbədi və gözəl həmdəm tapır"* [4, s.97].

Hüseyn Arifdən söz açan qələm əhli, yazıçı, alim və tədqiqatçılar onu "təbiət şairi" adlandırırlar və bu epitet özünü tam mənası ilə doğruldur. Çünki müasir Azərbaycan poeziyasında hər bir şair haqqında bu ifadəni işlətmək mümkün deyil. Təbiətə bütün şairlər müraciət etmişlər və poeziya xəzinəmizdə gözəl təbiət şeirləri istənilən qədərdir: Qasım Qasımzadə, Nəbi Xəzri, Məmməd Araz, Fikrət Qoca, Məmməd Aslan, Hüseyn Kürdoğlu, Zəlimxan Yaqub və digər şairlərin yaradıcılığından bu mövzuya aid istənilən qədər nümunələr gətirmək olar. Burada Səməd Vurğunun qoyduğu ənənəni davam etdirmək mənasında Məmməd Arazın Azərbaycan təbiəti ilə bağlı şeir və poemaları haqqında da söz açmaq olar. Tənqidçi-alim Vaqif Yusifli "Məmməd Araz dünyası" monoqrafiyasında yazır: *"Təbiətdə, onun dağında, qayasında, çəmənində, ağacında İnsanı görmək, İnsan izini axtarmaq Məmməd Arazın 70-80-ci illər lirikasında ardıcıl bir hal alır. Lakin onun özəyi, mayası "Atamın kitabı"ndan gəlir. Məhz bu poemada təbiət təkcə təbiət kimi dərk olunmur, insanlığın tarixi, mübarizəsi və gücü kimi yaddaşa köçür.*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 530-538*
*Poemanın elə ilk səhifələrində İnsan-Təbiət vəhdəti fəlsəfi bir ahəng alır"* [13, s.75].

Hüseyn Arifdən və Məmməd Arazdan sonra Musa Yaqub da təbiəti, onun gözəlliklərini özünəməxsus poetik bir dillə canlandırdı. Onun şeirlərində metaforik təfəkkür bütün gücü ilə işləyir, təbiət insanilәşir, insan dililə danışır, yaxud insanla təbiət arasında elə bir doğmalıq yaranır ki, insanın özü də təbiətin bir parçasına çevrilir. Azərbaycan təbiətinin gözəlliklərini şeirlərində əks etdirən Musa Yaqub meşəni, dağı, dərəni, çayı, quşu, ağacı, buludu məhz təbiətin öz qoynunda seyr edir, küləklə, yağışla, çənlə, dumanla üz-üzə dayanır, ağacları ay işığında seyr edir, könül rahatlığını, qulaq dincliyini meşələrin, çəmənlərin sakitliyində arayır. Musa Yaqubun 60-80-ci illərdə təbiətə həsr etdiyi şeirlər romantik duyğulu şeirlərdir.

*Burda hər meşənin min bir ağacı,*
*Burda hər ağacın yamyaşıl tağı,*
*Burda hər tağ üstə sarmaşıq saçı,*
*Hər saçın küləkdən darağı vardır.*

*Burda hər yamacın çiçəkdir daşı,*
*Burda hər çiçəyin şehdir göz yaşı,*
*Burda şeh damlası bir üzük qaşı,*
*Hər qaşın qızılı qurşağı vardır.*

*...Harda bu saydığım gözəllik olsa,*
*Orda Azərbaycan torpağı vardır* [12, s.18-19].

Təbiətə antihumanist münasibətə qarşı ilk dəfə poeziyada haray qoparan isə Səməd Vurğun oldu ("Ovçu, insaf elə keçmə bu düzdən, O çöllər qızını ayırma bizdən"). Sonralar-altmış-yetmişinci illərdə bu haray, bu etiraz daha da gücləndi, meşələrin qırılması, çayların quruması, dənizə çirkab sularının axıdılması neçə-neçə şeirin mövzusuna çevrildi. Xüsusilə, Məmməd Arazın "Professor Gülə məktub" şeiri poeziyanın sərt mesajı kimi səsləndi.

**Nəticə.** Gördüyümüz kimi, klassik dövrdən başlayaraq poeziyanın əsas və ənənəvi mövzusu olan, bəzən adi təsvir kimi bədii əsərə lirik məzmun verən, bəzən isə şairin qələmində bu və ya digər ictimai-sosial cəmiyyət hadisəsinə münasibət bildirmək üçün bədii üsul-priyom kimi istifadə edilən təbiət mövzusu olduqca rəngarəng çalarlara və məzmun müxtəlifliyinə malikdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Araz, M. Seçilmiş əsərləri: şeirlər və poemalar / M.Araz. – Bakı: Azərnəşr, – 1986. – 478 s.
2. Aşıq Ələsgər. Şeirlər, dastan-rəvayətlər, xatirələr / tərt. ed. İ.Ələsgər – Bakı: Çinar-Çap, – 2003. – 496 s.

3. Cavad, Ə. Sən olasan gülüstan / Ə.Cavad. – Bakı: Təhsil, – 2012. – 190 s.
4. Əfəndiyev, A.K. İnam və şübhə / A.K.Əfəndiyev. – Bakı: Yazıçı, – 1988. – 171 s.
5. Hüseyn Arif. Seçilmiş əsərləri / layihənin rəhbəri R. Həşimov, tərt. ed. S.Babullaoğlu – Bakı: Xalq Bank, – 2011. – 617.
6. Hüseynova, G.Ş. Xalq lirikası və çağdaş Azərbaycan şeirində peyzaj: / filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı / – Bakı, 2018. – 22 s.
7. İmamverdiyev, Q. Seçilmiş əsərləri / Q.İmamverdiyev. – Bakı: Azərnəşr, – 1988. – 334 s.
8. Məhəmməd Füzuli. Seçilmiş əsərləri: [2 cilddə] / – Bakı: Azərnəşr, 1988. – c.1. – 580 s.
9. Osmanova, G. Aşıq Ələsgər şeirlərində peyzaj və lirik qəhrəman // Aşıq Ələsgər: sazın sehri və sözün şöhrəti. Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: – 2021, – s. 224-229.
10. Səməd Vurğun. Secilmiş əsərləri: [5 cilddə] / tərt. ed. A.Salmansoy – Bakı: Şərq-Qərb, – 2005. – c.3. – 424 s.
11. Şah İsmayıl Xətai. Keçmə namərd körpüsündən (şeirlər və poemalar) / tərt. ed. Ə. Səfərli, X.Yusifov – Bakı: Yazıçı, – 1988. – 342 s.
12. Yaqub, M. Bir sim üstə / M.Yaqub. – Bakı: Yazıçı, – 1977. – 254 s.
13. Yusifli, V. Məmməd Araz dünyası / V.Yusifli. – Bakı: Şur, – 1994. – 155 s.
14. Мурадалиева, Н.Б. Романтический пейзаж в литературе / Н.Б.Мурадалиева. – Баку: Язычы, – 1991. – 204 с.

**Akram Hasanov**

## THE THEME OF NATURE AND HUMAN UNITY IN AZERBAIJAN LYRIC POETRY FROM TRADITION TO MODERNITY

### Summary

The glorification of nature in Azerbaijani poetry has been one of the eternal themes of poetry for centuries. In classical poetics, it is also called landscape.

In the early Middle Ages, great importance was attached to the depiction of nature in Azerbaijani literature, colorful landscapes were created with different purposes depending on the theme and content of the work, the artist's temperament and creative style. The landscape gallery of Azerbaijani poetry is quite rich in this regard. In the 11th century Qatran Tabriz's qasidas, in Nizami Ganjavi's poem "Iskandername" (in the description of Barda), in the attributes of nature that are often addressed in the ghazals of Muhammad Fuzuli, in Shah Ismayil Khatai's poetry, in the poems of Vagif and Vidadi, in the XX century A of the romantic poets of Azerbaijan – Muhammad Hadi, Huseyn Javid, the image of nature brought to life in the poems of Abbas Sahhat, Abdulla Shaiq and Jafar Jabbarly confirms the existence

of a continuous tradition in poetry. This tradition is continued in the Soviet era in the poems of Samad Vurgun, Suleyman Rustam, Rasul Rza, Osman Sarivally, Mirvarid Dilbazi, Mammad Rahim, Gabil, Bakhtiyar Vahabzadeh, Nabi Khazri, Ahmed Jamil, Huseyn Arif, Kasim Gasimzadeh, Mammad Araz, Islam Safarli, Aliaga Kurchayli, Huseyn Kurdoglu and other poets.

***Key words:*** *poet, nature, landscape, poetry, human, psychological closeness*

**Акрам Гасанов**

**ТЕМА ПРИРОДЫ И ЧЕЛОВЕЧЕСТВА В ЛИРИЧЕСКОЙ ПОЭЗИИ АЗЕРБАЙДЖАНА ОТ ТРАДИЦИИ К СОВРЕМЕННОСТИ**

**Резюме**

Воспевание природы в азербайджанской поэзии на протяжении веков было одной из вечных тем поэзии. В классической поэтике его еще называют пейзажем. В эпоху раннего средневековья в азербайджанской литературе большое значение придавалось изображению природы, красочные пейзажи создавались с разными целями в зависимости от темы и содержания произведения, темперамента и творческого стиля художника. Пейзажная галерея азербайджанской поэзии в этом отношении весьма богата. В касидах Катрана Тебриза XI века, в поэме Низами Гянджеви «Искандерname» (в описании Барды), в атрибутах природы, к которым часто обращаются в газелях Мухаммада Физули, в поэзии Шаха Исмаила Хатаи, в стихах Вагифа и Видади, в XX веке поэты-романтики Азербайджана - Мухаммад Хади, Гусейн Джавид. Образ природы, воплощенный в жизнь в стихах Аббаса Саххата, Абдуллы Шайка и Джафара Джаббарлы, подтверждает существование непрерывной традиции в поэзии. Эта традиция в советские времена продолжалась в стихах Самед Вургун, Сулейман Рустам, Расул Рза, Осман Сарывалли, Нигяр Рафибейли, Мамед Рахим, Габиль, Бахтияр Вагабзаде, Наби Хазри, Ахмед Джамиль, Гусейн Ариф, Касим Гасымзаде, Мамед Араз, Ислам Сафарли, Алиага Кюрчайли, Гусейн Кюрдоглу и других поэтов.

***Ключевые слова:*** *поэт, природа, пейзаж, поэзия, человек, психологическая близость.*

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: AMEA-nın həqiqi üzvü,**
**filologiya elmləri doktoru, professor Teymur Kərimli**
**tərəfindən çapa tövsiyə olunmuşdur**